# "Azərbaycan "Formula-1"in tarixində yeni standartlar müəyyən etdi"



***"Formula-1" Avropa Qran-prisinin Bakı mərhələsi böyük uğurla başa çatıb. Mütəxəssislər hesab edirlər ki, Azərbaycan bu nüfuzlu idman yarışının tarixində heyrətamiz uğurlara imza atıb. Çoxsaylı fanatlar, əcnəbi qonaqlar yarış barədə öz təəssüratlarını həvəslə əməkdaşlarımızla bölüşüblər.***

**Alan Chekri (Böyük Britaniya):**

— "Formula -1" Avropa Qran-prisi uğurla start götürdüyü kimi, uğurla da başa çatdı. Heyrətamiz və unuldulmaz anlar yaşadım. Dünyanın ən böyük sürət ustalarını Bakı trekində izləmək son dərəcə xoş idi.

Mən ənənəvi olaraq "Ferrari" komandasına azarkeşlik edirəm. Bu komandanın dünya şöhrətli pilotları Sebastian Fettel və Kim Raykonenə böyük rəğbətim var. Birinci yeri bu dəfə də "Mersedes" komandası tutdu. İdmanda zəfər ən güclülərə nəsib olur. Əlbəttə, qalibləri, eləcə də bütün iştirakçıları təbrik edirəm.

Amma, idmanda uduzan olmur. Düşünürəm ki, ən böyük uğura gənc, müstəqil Azərbaycan dövləti imza atıb. Axı, "Formula -1" Avropa Qran-prisini belə yüksək səviyyədə təşkil etməyə hər ölkənin gücü çatmır. Bunun üçün həm iqtisadi, maliyyə, həm də insan resursları tələb olunur. Xoşbəxtlikdən, bütün bunlar Azərbaycanda mövcuddur.

Yeri gəlmişkən, dünən internetdən öyrəndim ki, Bakıya yarışları izləmək üçün 42 ölkədən azarkeşlər gəliblər. Mən özüm Böyük Britaniyadanam. Ölkənizdə biznesim var. Dost Azərbaycanda keçirilən belə möhtəşəm tədbirdə iştirak etmək şansını qaçıra bilməzdim. Yarışlardan aldığım təəssürütlarımı, əlbəttə, doğmalarımla, dostlarımla bölüşəcəyəm. Bir sözlə, çox məmnunam.

**Tengiz Marnelaşvili, (Gürcüstan):**

— Tbilisidənəm. Məxsusi olaraq "Formula-1" yarışlarını izləməyə gəlmişəm. Burada gördüklərim xəyalımda təsəvvür etdiklərimdən qat-qat üstün oldu. Mənə elə gəldi ki, nağıllar aləminə düşmüşəm. Həqiqətən, fatastik hisslər yaşadım. Bakı trekində adlı-sanlı pilotlar sadəcə yarışmırdılar, onlar, möcüzə yaradırdılar.

Bundan əvvəlki "Formula-1" yarışlarını mavi ekran qarşısında izləmişəm. Trasdakı inanılmaz sürəti canlı müşahidə etmək isə başqa bir hissdir. Bəzən mənə elə gəlir ki, pilotlar qeyri-adi insanlardır. Hər halda, bu peşə böyük səriştə və cəsarət tələb edir.

İlk dəfədir ki, Bakıdayam. Xəzərin qoynuna sığınan bu gözəl şəhəri, onun güləruz, mehriban insanlarını, yəqin ki, uzun müddət unutmayacağam. Təəssüf edirəm ki, paytaxtınıza cəmi üç günlüyə gəlmişəm. Vaxtım dar olsa da, artıq şəhərin bir sıra tarixi yerləri ilə tanış olmuşam. İçərişəhərə sadəcə heyran qaldım. Burada qoca tarix dil açıb danışır. Bir daha Bakıya gələcəyimə ümid edirəm.

**Leon Sveengers, (Niderland):**

— Niderlanddan gəlmişəm. Zanbaqlar və qızılgüllər ölkəsindən! Bu gün sizinlə Xəzərin sahilindəki bu gözəl parkda görüşürük. Diqqət yetirin, burada nə qədər gözəl güllər var! Azərbaycan da Niderland kimi qızılgüllər diyarına çevrilir!

Mən iş adamıyam. Bir neçə ildir ki, Azarbaycanda həyatın bütün sahələrində baş verən hərtərəfli inkişafı şəxsən müşahidə edirəm. Ölkənizin yaxın dostu olaraq bu tərəqqidən çox məmnun qalıram.

Hesab edirəm ki, Azərbaycanın uğurlarının əsasında düzgün idarəetmə dayanır. Ölkədə davamlı inkişaf olmasaydı, bu gün dünya idmanında sürət rəmzi olan "Formula -1" yarışları Bakıda keçirilməzdi. Bəli, sürətlə inkişaf edən Azərbaycan və özündə sürət həyacanı və qələbə iddiasını təcəssüm etdirən "Formula-1" Avropa Qran-prisi bir-birini tamamlayır, deyilmi? Bir məqamı da vurğulamaq istərdim. Mən ötən il də Azərbaycanda böyük uğurla keçirilən Birinci Avropa yarışlarını izləmişəm. O zaman olduğu kimi, bu dəfə də Azərbaycan qitə idmanında yeni standartlar müəyyən etdi. Şübhə etmirəm ki, Bakı yarışı möhtəşəm uğurları ilə yadda qalacaq.

Soruşursunuz ki, hansı komandaya azərkeşlik edirəm. Burada heç bir sirr yoxdur. "Red Bull Racinq" komandasının uğurlarına həmişə sevinmişəm. Daniel Rikkardonu ən yaxşı pilotlardan biri hesab edirəm.

**Yuri Verxlov, (Rusiya):**

—Mən də "RedBull Racinq"ə azarkeşlik edirəm. Axı, həmin komandanın ikinci pilotu Daniil Kvyak həmyerlimdir.

Moskvadanam. Özümün restoranlar şəbəkəm var. Azərbaycan mətbəxi məni çox maraqlandırır. Dünən macal tapıb İçərişəhərdəki restoranların birində Azərbaycanın mətbəxinin ləziz yeməklərindən həvəslə daddım.

Tanış olun, bəyat yoldaşım Anna Oleqovna da buradadır. "Bolşoy teatr"da çalışır, tanınmış xoreoqrafdır. Yeri gəlmişkən, Azərbaycan musiqisini, xüsusilə böyük bəstəkar Qara Qarayevin ecazkar musiqisinin pərəstişkarıdır.

**Matt Kiernan, (Böyük Britaniya):**

— İlk dəfədir ki, Bakıdayam. "Formula -1" Avropa Qran-prisinin Bakı mərhələsi yüksək səviyyədə təşkil olunub. Hiss olunur ki, Azərbaycanda bu tədbirə yaxşı hazırlaşıblar. Yarış iştirakçıları da, qonaqlar da çox razıdırlar.

"Formula -1" yarışlarını dünyanın çox yerində izləyirlər. Belə tədbirlər ölkənizdə turizmin inkişafına böyük təkan verə billər. Azərbaycanın gözəl təbiəti, zəngin tarixi mədəniyyət abidələri var. Turistləri cəlb etməklə ölkəniz böyük gəlirlər əldə edə bilər.

Hesab edirəm ki, "Formula -1" bir daha Azərbaycan mədəniyyətinin incilərini bütün dünyaya təqdim etdi. Qədim və müasir şəhər olan Bakı həqiqətən öz füsunkarlığı və təkrarsızlığı ilə hər kəsi heyran edir!

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

